AZƏRBAYCAN RESPUBLİKASININ MEMARLAR İTTİFAQI
СОЮЗ АРХИТЕКТОРОВ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

Şamil Fətullayev

# BAKIDA ŞƏHƏRSALMA
# XIX əsr və XX əsrin əvvəllərində

Шамиль Фатуллаев

# ГРАДОСТРОИТЕЛЬСТВО БАКУ
# XIX – начала XX веков

2013

AZƏRBAYCAN RESPUBLİKASININ MEMARLAR İTTİFAQI
СОЮЗ АРХИТЕКТОРОВ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

Layihənin rəhbəri: Elbay Qasım-zadə
Elmi redaktor: V.İ.Pilyavski, *memarlıq doktoru, RSFSR-nın əməkdar memarı*

Dizayn: Novruz Novruzov
Məsul katib: Jalə Muradova
Kompyuter tərtibatı: Gülnar Səfərova

Bakı ölkəmizin ən qədim şəhərlərindən biridir. XIX əsr və XX əsrin əvvəllərindən etibarən şəhər sürətlə inkişaf etməyə başlayır. Kitabda Bakıda şəhərsalmanın məhz bu mərhələsi tədqiq olunmuşdur. Kapitalizm dövrünün digər şəhərləri ilə ortaq cəhətlərinin olmasına baxmayaraq, Bakı öz inkişaf tendensiyası və spesifik planlaşdırma strukturuna malik idi. Məhz bu cəhətlər şəhərin özünəməxsusluğunu və bədii xüsusiyyətlərini formalaşdırdı.

Müəllif tərəfindən Bakıda şəhərsalmanın inkişaf qanunauyğunluğu, şəhərin tikintisindəki xüsusiyyətlərin və onun arxitekturasına təkrarolunmaz töhfələr verən memarların yaradıcılığının aydınlaşdırılmasına cəhd olunmuşdur.

Kitab memarlar, şəhərsalma mütəxəssisləri, memarlıq və şəhərsalma üzrə tarixçilərin istifadəsi üçün nəzərdə tutulur.

Şamil Fətullayev. **Bakıda şəhərsalma, XIX əsr və XX əsrin əvvəllərində.**
Bakı, “Şərq-Qərb” Nəşriyyat Evi, 2013, – 352 səh.

© Azərbaycan Respublikasının Memarlar İttifaqı, 2013
© “Şərq-Qərb” Nəşriyyat Evi, 2013

**ISBN** 978-9952-32-020-6
978-9952-32-033-6

Руководитель проекта: Эльбай Касим-заде
Научный редактор: В.И.Пилявский, *заслуженный архитектор РСФСР, доктор архитектуры, профессор*

Дизайн: Новруз Новрузов
Ответственный секретарь: Жале Мурадова
Компьютерное оформление: Гюльнар Сафарова

Баку – один из древнейших городов нашей страны. Быстрыми темпами он начинает развиваться в XIX – начале XX веков. Именно этот период градостроительства Баку рассмотрен в книге. Несмотря на общие черты с другими городами эпохи капитализма, Баку имел собственные тенденцию роста и специфику планировочной структуры, которые и определили его своеобразие и художественные особенности.

Автором сделана попытка раскрыть закономерности градостроительного развития Баку, особенности его застройки и творческую деятельность зодчих, внесших свой неповторимый вклад в архитектуру города.

Книга рассчитана на архитекторов, градостроителей, историков архитектуры и градостроительства.

Табл. 3, ил. 176, список лит.: 304 названия.

Шамиль Фатуллаев. **Градостроительство Баку, XIX – начала XX веков**.
Баку, Издательский Дом “Шарг-Гарб” (Şərq-Qərb), 2013, – 352 стр.

© Союз Архитекторов Азербайджанской Республики, 2013
© Издательский Дом “Шарг-Гарб” (Şərq-Qərb), 2013

# ÖN SÖZ

Bakı haqqında fikir söyləmək – Xəzər dənizində, dərin buxtanın qərb sahilində yerləşən Sovet İttifaqının ən böyük və ən qədim şəhərlərindən biri haqqında danışmaq deməkdir. Şəhərin tikintisindəki rəngarənglik Bakı qalasının relyef, planlaşdırma strukturu, onun memarlıq abidələri, həmçinin forştadtın "sonsuza" qədər uzun və düz küçələri ilə müəyyən edilir.

Çox sayda məqalələr, broşür və Azərbaycan, rus və xarici müəlliflərin kitabları Bakı tarixinə həsr edilmişdir. Lakin tarix elmləri doktoru S.B.Aşurbəylinin Bakı tarixi haqqında monoqrafiyası XVIII əsr ilə tamamlanmışdır [16]; akademik M.A.Useynov, sənətşünaslıq doktoru L.S.Bretaniski və A.B.Salamzadənin tədqiqatlarında ən qədim dövrdən başlayaraq XIX əsrin sonlarınadək Bakıda şəhərsalma və memarlığın müxtəlif aspektləri hərtərəfli təhlil edilir.

XIX əsr və XX əsrin əvvəllərində Bakıda arxitektura və şəhərsalmanın inkişaf dövrü tam işıqlandırılmamışdır, hərçənd ki, məhz tarixin bu dövr kəsiyi şəhərin onun bütün ziddiyyətləri ilə Zaqafqaziyanın böyük sənaye mərkəzlərindən biri kimi formalaşmasını xarakterizə edir.

Bakı xanlığının mərkəzi olan kiçik feodal şəhəri Bakı 1806-cı ildə Rusiyanın tərkibinə daxil olduqdan sonra istər planlaşdırma, istərsə də arxitektura baxımından onun tarixi inkişafının yeni, proqressiv mərhələsi başlamış-

# ПРЕДИСЛОВИЕ

Говорить о Баку - это значит говорить об одном из крупнейших и древнейших городов Советского Союза, расположенном на западном берегу глубокой бухты Каспийского моря. Многообразие застройки города определяется рельефом, планировочной структурой бакинской крепости, ее памятниками архитектуры, а также прямыми и длинными до «бесконечности» улицами форштадта.

Истории Баку посвящено множество статей, брошюр и книг азербайджанских, русских, советских и зарубежных авторов. Однако капитальная монография доктора исторических наук С.Б. Ашурбейли об истории Баку завершается XVIII веком [16]; в исследованиях академика М.А. Усейнова, доктора искусствоведения Л.С. Бретаницкого и А.В. Саламзаде всесторонне анализируются различные аспекты градостроительства и архитектуры Баку начиная с древнейших времен и кончая второй половиной XIX века.

Период развития архитектуры и градостроительства Баку XIX и начала XX веков еще не освещен, хотя именно этот период истории характеризует формирование города как крупнейшего промышленного центра Закавказья со всеми его противоречиями.

После того как небольшой феодальный город Баку - центр Бакинского ханства в 1806 году присоединился

dır. 1859-cu ildə Bakı qəza şəhəri Bakı quberniyasının mərkəzinə çevrilmişdir. Şəhərin dəniz sahilində yerləşməsi, gəmiçilik üçün əlverişli buxtaya malik olması onun Yaxın və Orta Şərq ölkələri, Orta Asiya və Rusiya ilə ticarət əlaqələrini inkişaf etdirməyə imkan verən rahat buxta ilə münbit şərait yaradırdı. Bu da öz növbəsində şəhər ərazisinin genişlənməsi və inkişafında mühüm rol oynayırdı. Bununla belə, quberniya rəhbərliyi şəhərin nə iqtisadi yüksəlişinə, nə də şəhərsalma işinin inkişafına lazımi diqqət ayırmırdı.

XIX əsrin ikinci yarısından etibarən, Abşeronda neft quyularının müntəzəm və plana uyğun istismarı nəticəsində Bakı, Çar Rusiyasının iri sənaye və iqtisadi mərkəzləri sırasına qatılır. Rusiyadakı heç bir yaşayış məntəqəsi inkişaf tempinə və xüsusiyyətlərinə görə bir vaxtlar nəzəri cəlb etməyən bu şəhərlə ayaqlaşa bilmirdi. Yerli və xarici şirkətlərin böyük maliyyə vəsaiti ayırdıqları zəngin neft resurslarına malik Bakı həmin dövrdə möhtəşəm iqtisadi yüksəlişə nail olmuşdu. V.İ.Lenin bu məqamı özünün "Rusiyada kapitalizmin inkişafı" əsərində qeyd etmişdir. Bu barədə o, belə yazırdı: "Demək olar ki, neftin hamısı Bakı quberniyasında çıxarılır" və Bakı şəhəri kiçik şəhərcikdən Rusiyanın ali dərəcəli sənaye mərkəzlərindən birinə çevrilmişdir" [113].

İstehsaledici qüvvələrin və istehsal münasibətlərinin inkişafına paralel olaraq şəhərin sahəsi genişlənmiş, onun planlaşdırılması və tikintisində yeni elementlər meydana çıxmışdı: ictimai bağ və parklar, bulvarlar, meydanlar, müxtəlif memarlıq üslubuna malik gözəl monumental binalardan ibarət uzun magistral yollar. Bütün bu sadalananlar hələ də yetərincə araşdırılmamış, onlar barədə mövcud məlumatlar sistemləşdirilib öyrənilməmişdir. Hal-

к России, начался новый, прогрессивный этап его исторического развития как в планировочном, так и в архитектурном отношении. В 1859 году уездный город Баку был преобразован в центр Бакинской губернии. Территориальному расширению и прогрессивному развитию способствовало его расположение у моря с удобной бухтой, позволявшей развивать торговые связи со странами Ближнего и Среднего Востока, со Средней Азией и Россией. Однако губернское начальство не уделяло должного внимания ни экономическому подъему, ни градостроительному развитию города.

Со второй половины XIX века, со времени планомерной разработки нефтяных месторождений Апшерона, Баку выдвигается в ряд крупнейших промышленных и экономических центров царской России. Ни один населенный пункт России по темпам и своеобразию роста не мог тягаться с этим малозаметным в прошлом городком. Обладавший богатейшими нефтяными ресурсами, в разработку которых вкладывались огромные капиталы отечественных и иностранных фирм, Баку находился в то время в состоянии большого экономического подъема. В.И. Ленин отметил это в своей работе «Развитие капитализма в России». По этому поводу он писал, что «почти вся нефть добывается в Бакинской губернии» и город Баку «из ничтожного городка сделался первоклассным в России промышленным центром» [131].

По мере развития производительных сил в производственных отношений расширяется территория города, появляются новые элементы в его планировке и застройке: общественные сады, скверы, бульвары, площади, прямые магистрали с монументальными зданиями различ-

buki, haqqında danışdığımız dövr təkcə elmi baxımdan deyil, şəhərin tarixi əhəmiyyətli qisminin böyük hissəsində aparılan yenidənqurma işləri ilə əlaqədar olaraq həm də praktik cəhətdən mühüm əhəmiyyət kəsb edir.

Bakının məhəllələrində yenidənqurma işlərinin aparılmasından ötrü onun planlaşdırma strukturunun tarixi haqqında geniş məlumata malik olmaq lazımdır. Bu isə yalnız arxiv, mətn, qrafik və digər sənədlərin öyrənilməsi, əsaslı mövcud tikintinin, həmin dövrün mühüm memarlıq abidələrinin qiymətinin aşkar edilməsi əsasında mümkündür [180]. Bütün bu materiallar Bakı da daxil olmaqla qədim şəhərlərin yenidən qurulması vəzifəsinin mahiyyətinə varmağa kömək edir. Məhz buna görə də XIX əsr və XX əsrin əvvəllərində Bakının şəhərsalması haqqında monoqrafiya bu qədər aktualdır. Çünki keçmişin, xüsusilə yaxın keçmişin təcrübəsindən istifadə etmədən şəhərin perspektiv inkişafı ilə bağlı məsələlərin düzgün həlli yollarını müəyyənləşdirmək mümkün deyildir.

Müəllifin bu mövzunu araşdırmaqda əsas məqsədi Azərbaycanın Rusiyanın tərkib hissəsinə çevrilməsindən Sovet hakimiyyətinin qurulmasınadək olan zaman kəsiyində Bakının keçdiyi formalaşma və inkişaf mərhələləri haqqında məlumat verməkdir.

Bakının müasir inkişafı XIX əsrin əvvəllərindən, orta əsrlərə aid İçərişəhərin ətraflarında salınmış Avropa forştadtının meydana gəlməsindən sonra başlayır. Sonralar şəhər-qala və forştadt birləşmiş və Bakı dünya əhəmiyyətli sənaye mərkəzlərindən birinə çevrilmişdir.

XIX əsrin birinci yarısına qədər Azərbaycanın iri ticarət şəhərləri olan Gəncə, Şuşa, Şəki öz inkişaf səviyyəsinə görə Bakıdan irəlidə idilər, daha sonra isə geri qaldılar. XIX-XX əsrlərin kəsişməsində Bakı Yaxın Şərqin Təbriz, İs-

ной архитектурной трактовки. Все эти явления еще должным образом не раскрыты, не систематизированы и не обобщены, хотя рассматриваемый период представляет не только научный интерес, но имеет и практическое значение в связи с продолжающейся реконструкцией обширной исторической территории города.

При реконструкции кварталов Баку потребуется глубокое знание истории формирования его планировочной структуры. Это возможно лишь на основе изучения архивных, графических, текстовых и других документов, выявления ценности существующей капитальной застройки, важнейших памятников эпохи и т. д. [180]. Все эти материалы помогут вникнуть в сущность задачи реконструкции исторических городов, в том числе и Баку. Вот почему создание монографии о градостроительстве Баку XIX и начала XX веков актуально, ибо без использования опыта прошлого, особенно недавнего, немыслимо правильно решать задачи перспективного развития города.

Цель предпринятого автором исследования - показать пути формирования и развития Баку со времени присоединения Азербайджана к России до установления Советской власти.

Современное развитие Баку начинается с начала XIX века, с появления так называемого европейского форштадта как предместья средневекового города-крепости. Впоследствии город-крепость и форштадт составят единое целое и Баку превратится в один из промышленных центров мирового значения.

Крупные торговые города Азербайджана, такие, как Гянджа, Шуша, Шеки, до первой половины XIX века по экономическому уровню развития

fahan, Tehran kimi şəhərlərini geridə qoydu. Bu da qədim qalanın kölgəsi altındakı boş sahədə yaranmış və 100 il ərzində mürəkkəb kommunal təsərrüfat strukturuna malik iri kapitalist şəhərinə çevrilmiş Bakının müstəqil şəhərsalma orqanizmi kimi inkişafı tendensiyalarının öyrənilməsinin əhəmiyyətini daha da artırır.

Bu kitabda Bakının şəhər orqanizmi kimi formalaşmasının, mərkəzin kompozisiya strukturunun, əsas magistralların və "yaşıl memarlığının" yaranmasının əsas mərhələləri tədqiq olunur.

Materialların toplanması üzrə uzunmüddətli prosesdə köməklik göstərən öz AzSSR EA-nın Memarlıq və İncəsənət İnstitut həmkarlarım, AzSSR-n MDTA, GSSR-n MDA, SSRİ MDHTA, SSRİ MDTA, SSRİ HDDMDA-n əməkdaşları, eləcə də akademiklər M. A.Useynov, A.V.Sumbatzadə, Az SSR EA-nın müxbir üzvü, sənətşünaslıq doktoru A.S.Salamzadə, memarlıq namizədi R.M.Əfəndizadəyə səmimi minnətdarlığımı bildirməyi özümə borc bilirəm.

шли впереди Баку, а затем отстали. На рубеже XIX—XX веков он оставил позади себя такие города Ближнего Востока, как Тебриз, Исфаган, Тегеран и др., что делает особенно ценным изучение тенденций развития Баку как самостоятельного градостроительного организма, выросшего на свободной территории под сенью древней крепости и превратившегося в течение века в огромный капиталистический город со сложным коммунальным хозяйством.

В этой книге исследованы основные этапы становления и формирования Баку как городского организма, композиционная структура его центра, основных магистралей и «зеленой архитектуры».

Считаю своим долгом выразить искреннюю признательность моим коллегам по Институту архитектуры и искусства Академии наук АзССР, сотрудникам ЦГИА АзССР, ЦГА ГССР, ЦГВИА СССР, ЦГИА СССР, ЦГИАВМФ СССР, а также академикам М.А. Усейнову, А.В. Сумбатзаде, члену-корреспонденту АН АзССР д-ру искусствоведения проф. А.С. Саламзаде, канд. архитектуры Р.М. Эфендизаде, помогавшим в процессе длительной работы по подбору материалов.

# I Fəsil.
# XIX ƏSR – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞƏHƏRİN PLANLAŞDIRMA STRUKTURUNUN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

# Глава I.
# ОСОБЕННОСТИ РАЗВИТИЯ ПЛАНИРОВОЧНОЙ СТРУКТУРЫ ГОРОДА XIX - НАЧАЛА XX ВЕКОВ

## Şamaxı quberniyasının qəza şəhəri (1806-1859-cu illər)

Bakı, 1806-cı ildə Rus İmperiyasının tərkibinə daxil oldu və həmin andan etibarən orta əsrlərin yadigarı sayılan qala divarlarından kənarda şəhərin böyüməsi və inkişaf tarixində yeni bir səhifə açıldı.

Öz coğrafi mövqeyinə görə (şəhər Xəzər dənizinin qərb sahilində yerləşən) orta əsr Bakısı həm möhtəşəm buxtası olan dəniz limanı kimi, həm də Rusiyadan İrana gedən ticarət yollarının keçdiyi strateji məntəqə olaraq çox əlverişli mövqeyə malik idi[1]. XVIII əsrin sonu XIX əsrin əvvəllərində aparılan rus-İran müharibələri çar hökumətindən Bakı qalasının gücləndirilməsini tələb edirdi. Bakının müdafiə qabiliyyətinin artırılması məqsədilə müxtəlif vaxtlarda iki şəhər istehkamı layihəsi işlənmişdi.

1796-cı ildə hazırlanmış ilk variant "İstehkamları qorumaq məqsədilə layihələndirilən Bakı şəhərinin bir hissəsinin planı»" adlanırdı[2]. Layihə, İçərişəhərin cənub-qərb istiqamətində, təxminən köhnə "İnturist" mehmanxanasının yerləşdiyi əraziyədək 2 dəfəyə qədər genişləndirilməsini nəzərdə tuturdu. Layihələndirilən istehkamlar dəniz sahilində istinad divarı ilə başlayırdı. Yer relyefini təkrarlayaraq hündürlük

1. SSRİ MDHTA (Mərkəzi Dövlət Hərbi - Tarixi Arxivi), f.HA (Hərbi arxiv), saxlama vahidi 21665.
2. Oradaca.

## Уездный город Шемахинской губернии (1806-1859 гг.)

В 1806 году Баку вошел в состав Российской империи, и с этого времени начался новый период в истории развития и территориального роста города за пределы средневековых крепостных стен.

По своему географическому местоположению (город расположен на западном берегу Каспийского моря) средневековый Баку занимал очень выгодную позицию и как морской порт с великолепной бухтой, и как стратегический пункт в восточном Закавказье, через который проходили торговые пути из России в Иран[1]. Войны России с Ираном, которые велись в конце XVIII и в начале XIX веков, требовали от царского правительства укрепления бакинской крепости. Для усиления обороноспособности Баку в разное время были разработаны два варианта проекта укреплений города.

Первый вариант, составленный в 1796 году, назывался «План части города Баку с назначением прожектируемого к оному для охранения магазейнов укрепления»[2]. Проект предусматривал расширение крепости Ичэри-шэхер почти в два раза

1. ЦГВИА СССР, ф. ВУА, ед. хр. 21665.
2. Там же.



*Bakı qalasının planı. Mühəndis II Truzson, 1796-cı il.*

*План бакинской крепости. Инженер Х. Трузсон 2-й. 1796 г.*

nişanları xətti üzrə keçən divarlar keçmiş şəhər dumasının yaxınlığında İçərişəhərin qala divarlarına əsaslı surətdə yaxınlaşırdı. I Pavelin əmrilə rus qoşunlarının 1798-ci ildə Azərbaycanı tərk etməsi ilə Bakı qalasının genişləndirilməsi planı baş tutmadı.

1807-ci ildə mühəndis – mayor Xristian II Truzson "Şəhərin şimal tərəfində 200 sajın ərazidə yeni qalanın salınması haqqında layihə göstərilməklə Bakı şəhərinin bir hissəsinin və ona yaxın ərazilərin planı" adlı yeni plan işləyib hazırladı[3].

Bu plana əsasən şəhərin ətrafında, dəniz sahilində, boş, hamar və açıq sahədə qala tikmək nəzərdə tutulurdu. Buradan Bakı və ətrafları yaxşı görünürdü. Yeni qala 1796-cı ildə layihələşdirilmiş qaladan sahəsinə görə geri qalırdı və onun təxminən dörddə bir hissəsini təşkil edirdi.

3. SSRİ MDHTA, f.349, siyahı 3, s.v. 3332. "Bakı 1807-ci il avqustun 22-ci günü".

в юго-западном направлении, примерно до района, где расположена старая гостиница «Интурист». Проектируемые укрепления начинались на берегу моря бастионом. Проходя по линии повышенных отметок, стены повторяли рельеф местности и вплотную подходили к бастиону Ичэри-шэхер возле здания бывшей городской думы. В начале 1798 года русские войска по приказу Павла I оставили Азербайджан, и расширение бакинской крепости не состоялось.

В 1807 году инженер-майор Христиан Трузсон 2-й разработал новый «План части города Баки и лежащей около оной ситуации, с показанием прожекта о заложении подле города на северной стороне его расстоянием от оного на 200 сажен новой крепостцы, представленной на наклейке»[3].

3. ЦГВИА СССР, ф. 349, оп. 3, ед. хр. 3332. «Баки 1807 года августа 22 дня».



*Qalanın istehkamlarının planı. 1796-cı il.*

*План укрепления крепости. Проект. 1796 г.*



*Nəzərdə tutulan yeni qalanın planı. Mühəndis II Xristian Trusson, 1807-ci il.*

*План новой предполагаемой крепости. Инженер Х. Трузсон 2-ой, 1807 г.*

Dörd istehkamlı qalanın memarlıq həlli ulduza bənzər plan biçiminin və mövqe seçimin incəliklə düşünülməsi və hazırlanması baxımından birinci variantdan üstün idi. Görünür ki, II Truzson başqa məqsədlər güdürdü. O hərbi-dəniz limanı yaratmaq barədə düşünmürdü və o vaxtın istehkam sənətinin bütün qaydalarına cavab verən qala tikilməsini nəzərdə tuturdu. Ola bilsin ki, bu qalanın kompozisiya həllinə Sankt-Peterburqdakı o zaman çox məşhur olan Petropavlov qalasının istehkam strukturu təsir göstərmişdir.

Şəhər ətrafında, tikinti aparılmamış boş ərazilərdə köhnə qaladan ayrı yeni bir qalanın inşası və genişləndirilməsi gələcəkdə başqa planlaşdırmanın işlənilməsini zərurətə çevirirdi. Bununla yanaşı köhnə qalanın xaricində salınacaq yeni şəhər də başqa bir planlaşdırma sisteminə əsaslanmalı idi. Yəqin ki, yeni şəhər prospektli radial-konsentrik sxem üzrə planlaşdırılacaqdı. Buna relyef və ərazi imkan verirdi. Məhz belə planlaşma sxemi Rusiyanın yeni, mərkəzdən kənar şəhərlərinin tikintisində geniş şəkildə istifadə olunurdu. Bunu XIX əsrin ikinci yarısında Orta Asiyada hərbi-mühəndislər tərəfindən layihələşdirilmiş əksər şəhər planları da təsdiq edir [188].

Qalanın iri şəhərsalma elementi kimi yeni mahiyyət kəsb etməsi tarixən təşəkkül tapmış qala – Bakını və ərazinin relyefini nəzərə almayan planlaşma işlərinin yaranmasına rəvac verə bilərdi. Belədə isə, şəhərin genişləndirilməsi qabaqcadan hazırlanmış və gələcək şəhərə orijinallıq qata biləcək elementləri nəzərə almayan planlaşdırma sxemindən asılı olardı. Əgər Bakının tikintisi bu istiqamət üzrə aparılsaydı, (görkəmli arxitektura abidələri ilə zəngin olan köhnə qala nəzərə alınmadan) yeni qalanın və şəhərin kiçik, amma planlaşma strukturu baxımından diqqəti cəlb edən hissəsi Bakının

По этому проекту имелось в виду построить крепость вне пределов города, на берегу моря, на свободном, ровном и открытом участке. Отсюда хорошо были видны окрестности и город Баку. По площади новая крепость уступала той, которая была запроектирована в 1796 году и составляла примерно одну четвертую часть существующей.

Решение четырехбастионной крепости по форме звездчатого плана и по расположению на местности превосходило тщательностью продуманности и проработки первый вариант. Очевидно, Трузсон 2-й преследовал иные задачи: он не помышлял о формировании военно-морского порта и предусматривал строительство крепости, отвечавшей всем правилам фортификационного искусства той поры. Возможно, на композиционное решение крепости оказала влияние бастионная структура хорошо известной тогда Петропавловской крепости в Санкт-Петербурге.

Строительство новой крепости, ничем не связанной со старой, очевидно, вызвало бы в дальнейшем при развитии ее на свободной от застройки территории форштадта разработку иного планировочного решения. При этом в основу нового города вне старой крепости легла бы совершенно другая планировочная система. Вероятно, планировка нового города получила бы радиально-концентрическую схему с проспектами, что позволяли и рельеф и территория. Именно такая схема планировки широко применялась в строительстве новых периферийных городов России: это подтверждают большинство планов городов Средней Азии второй половины XIX века, спроектированных военными инженерами [188].

Появление нового ядра крепости как крупного градостроительного

tarixi inkişaf prosesindən kənarda qala bilərdi. Bu da Orta Asiyanın bir çox şəhərlərində olduğu kimi, şəhərin köhnə və yeni, düzbucaqlı və bir-biri ilə bağlı olmayan hissələrinin ayrılmasına gətirib çıxarardı.

Yeni qalanın müdafiəsi altında inzibati və ticarət mərkəzinin yaranması köhnə Bakının əhalisinin ticarət fəaliyyətini kəskin şəkildə məhdudlaşdıra bilərdi. 600 metrədək uzanan iri karvansara, bazar və ticarət cərgələrindın ibarət tarixən təşəkkül tapmış ictimai mərkəz öz əhəmiyyətini itirə bilərdi. Qalada yeni yaşayış evlərinin və binaların tikintisi (Şamaxı qapısından Salyan qapısına kimi) tədricən dayandırılmışdı. Bunun nəticəsi kimi köhnə qalanın ərazisi öz tarixi planlaşdırması və memarlıq abidələri ilə birlikdə tənəzzülə uğramaq, zaman keçdikcə isə tamamilə tərk olunmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Halbuki onun ərazisində Qız qalası (V-XII əsrlər), Şirvanşahlar sarayı kompleksi (XV-XVI əsrlər), Cümə məscidi (XIV-XIX əsrlər) kimi möhtəşəm milli memarlıq abidələri yerləşirdi. Özünəməxsus memarlıq quruluşundan çox şey itirmiş şəhərlərə nümunə kimi Gəncə şəhərini göstərmək olar. Gəncə Qalasının dağıdılmasından sonra onun istehkamları uçurulmuşdu.

Rusiyanın Zaqafqaziyadakı hərbi uğurları onu Xəzər dənizinin sahilində böyük vəsait tələb edən qalanın tikintisindən imtina etməyə sövq etdi və bu hadisə Bakı üçün xeyirli oldu. Rusiyanın tərkibinə qatıldıqdan sonrakı uzun zaman kəsiyində Bakının qədim qala divarları arxasında hərbi və inzibati əhəmiyyətin qorunub saxlanması qalanın inkişafında və forştadtın yaranmasında mühüm rol oynadı. Şəhərin böyümə prosesi tarixi özəyə bağlı olaraq davam edirdi ki, bu da kapitalizm dövrü Bakısının memarlığının inkişaf tarixində mühüm rol oynamışdır.

элемента способствовало бы развитию планировочных идей, не учитывавших исторически сложившегося города-крепости Баку и рельефа местности. Таким образом, рост города в конечном счете обусловливался заранее принятой планировочной схемой, не согласованной с элементами окружающей среды, которые могли бы придать своеобразие будущему городу. Если бы строительство Баку пошло по такому пути (без учета старой крепости с ее выдающимися памятниками архитектуры), то небольшая, но выразительная своей планировочной структурой территория новой крепости и города осталась бы в стороне от исторического развития Баку. Это могло привести к тем же последствиям, которые имели место во многих городах Средней Азии - четкому разделению на старые и новые, прямоугольные, не связанные друг с другом части.

Возникновение административного и торгового центра под защитой новой крепости резко понизило бы торговую деятельность населения старого Баку. Исторически сложившийся общественный центр с крупными караван-сараями, базарами и торговыми рядами протяженностью до 600 м (от Шемахинских до Сальянских ворот) мог утратить свое значение; строительство новых жилых домов и зданий в крепости постепенно прекратилось. В результате территория старой крепости с ее исторической планировкой и памятниками архитектуры могла прийти в упадок и с течением времени вовсе оказалась бы заброшенной. А между тем на ее территории находились такие выдающиеся памятники национального зодчества, как Гыз-Галасы – Девичья башня (V-XII вв.), комплекс дворца Ширваншахов (XV-XVI вв.), Джума-

*Bakıda Şirvanşahlar sarayi kompleksi. Divanxananın bir hissəsinin görünüşü. XV əsr.*

*Комплекс дворца Ширваншахов в Баку. Фрагмент Диван-хане, XV в.*



1807-ci ildə hazırlanmış qala layihəsi həyata keçirilməsə də, Bakı qalasının hüdudlarında bürc tikilməsi ideyası görünür ki, hərbi dairələri hələ də düşündürürdü. Əldə olunmuş qrafik sənədlərdən bəllidir ki, 22 yanvar 1833-cü ildə Bakıda "Daxilində salınacaq küçələri və içqala tikintisi üçün nəzərdə tutulmuş yeri göstərən Bakı qalasının sxematik ümumi planı" tərtib olunmuşdur[4]. Bu layihə 6 oktyabr 1835-ci ildə "Daxilində bürc və qalanın inşası, qalanın xaricində forştadt ərazisinin genişləndirilməsi nəzərdə tutulmaqla, Bakı qalasının ümumi planı" adı ilə yenidən işlənmişdi[5]. Təsdiq edilməsi üçün layihə Zaqafqaziya idarəsinə təqdim olunmalı idi. Bu plana əsasən Bakı qalasının ərazisi öz tarixən formalaşmış planlaşması və tikililəri ilə köklü yenidənqurmaya məruz qalacaqdı. Şirvanşahlar sarayı kompleksi istisna olunmaqla, orta əsrlərə aid abidələrlə birlikdə şəhərsalmanın ana xətti bütünlüklə məhv olunacaqdı. Yenidənqurma Şirvanşahlar sarayından da yan keçməyəcəkdi.

Bakı qalasının yenidən qurulması üzrə müxtəlif illərdə irəli sürülmüş üç layihə təklifindən qalanın gələcək taleyi ilə bağlı ən amansızı sonuncu layihə idi. Bu layihəyə görə qalanın qədim planlaşdırma strukturu və tikililəri məhv olunacaqdı.

1835-ci il layihəsinin həyata keçirilməsi ilk növbədə qalanın bütün əhalisinin (minlərlə insan) köçürülməsini tələb edirdi. Onlara forştadt ərazisində ev tikmək üçün güzəştli şərtlərlə torpağın ayrılması və tikinti işlərinin aparılması üçün külli miqdarda maliyyə vəsaiti tələb olunurdu. Sonda rəhbərlik layihəni rədd etdi. Belə ki, iqtisadi mülahizələrlə yanaşı həm də yerli əhalinin

4. SSRİ MDHTA, f.15261, s.1, s.v. 1301.
5. SSRİ MDHTA, f.15261, s.v. 1308.

мечеть (XIV-XIX вв.) и др. В качестве примера города, потерявшего многое из своего архитектурного своеобразия, может служить Гянджа: после ликвидации Гянджинской крепости ее укрепления были снесены.

Благоприятные для России военные события в Закавказье привели к отказу от постройки дорогостоящей крепости на берегу Каспия, и это стало благом для Баку. Сохранение за бакинской старой крепостью военного и административного значения на длительный период времени после присоединения к России предопределило развитие крепости и возникновение при ней форштадта. Рост города происходил в условиях подчинения историческому ядру, что сыграло огромную роль в истории развития архитектуры Баку в капиталистический период его существования.

Однако, хотя составленный в 1807 году проект крепости и не был осуществлен, идея создания цитадели в районе бакинской крепости, видимо, продолжала волновать военные власти: из выявленных графических документов видно, что 22 января 1833 года в Баку был подготовлен схематический «Генеральный план бакинской крепости с показанием внутри оной предлагаемых улиц и место для построения цитадели»[4]. Этот проект был переработан 6 октября 1835 года в «План крепости Баки с показанием предложения на устройство в оной Цитадели и Крепости, и увеличение форштадта за Крепостью»[5], который должен был быть представлен на утверждение кавказской администрации. По этому плану территория бакинской крепости с ее исторически сложившейся планировкой и

4. ЦГВИА СССР, ф. 15261, оп. 1, ед. хр. 1301.
5. ЦГВИА СССР, ф. 15261, ед. хр. 1308.



*Bakı qalasının yenidən planlaşdırma layihəsi. 1835-ci il planı.*

*Проект перепланировки бакинской крепости. План. 1835 г.*

xoşluqla öz doğma yurdlarından ayrılmaq istəməyəcəyi ehtimalını da nəzərə almaq lazım gəlirdi. Məcburi köçürmə asayişin pozulmasına və arzuolunmaz nəticələrə gətirib çıxara bilərdi.

O dövrdə qala divarları istehkam sistemi ilə möhkəmləndirilmişdi və iki qatdan ibarət idi. Bu onun ərazisinin genişlənməsinə mane olurdu. Lakin qala divarlarından kənarda qədim yaşayış məskəni – sənətkarlıq və ticarətlə sıx bağlı olan rabad mövcud idi. Qədim qalanın tarixən təşəkkül tapmış planlaşdırma strukturu faktiki olaraq əhalinin kasıb təbəqəsinin yaşayış məskəni olan rabad tərəfindən tamamlanırdı. Ətrafı hasarlanmadığından tez-tez hücuma məruz qalan və viran qalan rabadda tikililər müxtəlif sıxlıqda idi. Bəzi yerlərdə ayrıca kənd və qəsəbələr salınmışdı (Bayırşəhər, Xəlfədam).

Rabadın ərazisində həm də mülki və dini mahiyyətli iri binalar tikilirdi. Müxtəlif vaxtlarda burada Bakı xanları kompleksindən başqa, karvansaraylar, məscidlər, hamamlar və digər tikililər, eləcə də böyük yaşıl massivlər, şəhər kənarındakı "Xan bağı" salınmışdı. Bakı xanlarının sarayı, məscidlər, hamamlar və karvansaraylar ümumi yaşayış ti-

застройкой подвергалась коренной реконструкции: уничтожалась вся средневековая градостроительная ткань города с памятниками прошлых веков, за исключением комплекса дворца Ширваншахов, который, однако, тоже переделывался.

Из трех проектных предложений по реконструкции бакинской крепости, выдвинутых в разное время, самым бесцеремонным по отношению к судьбе крепости оказался последний, которым ликвидировались ее древняя планировка и застройка.

Для реализации проекта 1835 года необходимо было вначале выселить всех жителей крепости (несколько тысяч человек), на льготных условиях предоставить им участки для застройки в районе форштадта и добиться значительных средств на эти цели. Начальство отклонило проект, так как кроме экономических соображений приходилось считаться и с тем, что коренное население крепости добровольно не оставило бы наследственных владений, а насильственное переселение могло вызвать нежелательные эксцессы.

В то время крепость была ограничена двойным рядом стен, укрепленных системой бастионов, что препятствовало территориальному росту. Однако и за пределами крепости существовало давно заселенное предместье — рабад, тесно связанное с ремесленной и торговой жизнью. Сложившаяся планировочная структура древней крепости фактически дополнялась рабадом, который служил местом жительства беднейших слоев населения. Неограждённый, часто подвергавшийся нападению и разорению, рабад имел различную плотность застройки, иногда в виде отдельных поселений-деревень (Байир-шэхер, Хальфедам).

kililəri arasında üstünlük təşkil edirdilər. Belə bir nəticə hasil etmək olar ki, qala və rabad xüsusilə XVIII əsrin ikinci yarısından etibarən kortəbii şəkildə böyüyən vahid şəhər orqanizmi rolunda çıxış edirdilər. Özünün ictimai və ticarət mərkəzi olmayan rabad qaladan asılı vəziyyətdə idi. Bu məqam onun Şamaxı qapıları vasitəsilə bağlı olduğu qaladan asılılığını şərtləndirirdi.

Rabadın 15-16 hektar sahəyə malik tikililəri qalanın şimal hissəsində Şamaxı yolunun üstündə yerləşirdi. Orada çoxlu sayda karvansaralar var idi. Bolsulu bulaqlar rabadı və qalanı su ilə təmin edirdi.

Feodal Bakısı qala divarlarının arxasında öz ərazisini genişləndirirdi. Orada artıq ərazisinin böyüklüyünə görə qaladan geri qalmayan yeni yaşayış məntəqəsi formalaşmışdı (21,5 hektar). Qalanın ətrafında və rabadın qurtaracağında Abşeronun əvəzsiz neməti-zəfəran bağları salınmışdı. Sonralar bu bağların yerini şəhərin yeni tikililəri tutmuşdu.

1806-cı ildən sonra rabadın tərk edilmiş və xarabaya çevrilmiş binalarında yaşayış tədricən bərpa olunmağa başladı. Lakin 1826-cı il müharibəsində rabad o dərəcədə dağıdılmışdı ki, öz əvvəlki vəziyyətini tam bərpa edə bilmədi. Qalanın ətrafında geniş esplanada və nizamlı düzbucaqlı planlaşdırmaya malik forştadt yarandı.

Bakı Rusiya imperiyasının tərkibinə qatıldıqdan sonra hərbi dairələr İranla müharibə ehtimalını nəzərə alaraq qalanın möhkəmləndirilməsi işinə başladılar. 1807-1811-ci illərdə qala divarlarının ikiqat halqası bərpa olundu. Onlar Şamaxı və Salyan darvazalarında əlavə bürc və istehkamlarla möhkəmləndirildilər. İstehkam və divarlar boyunca başdan-başa daşla döşənmiş dərin, quru xəndəklər qazıldı, torpaq bənd quruldu. Eyni zaman-

На территории рабада также строились и крупные сооружения гражданского и культового характера. В разное время здесь появились, кроме ансамбля дворца бакинских ханов, караван-сараи, мечети, бани и другие сооружения, большой зеленый массив - загородный «ханский сад». Замок бакинских ханов, мечети и караван-сараи доминировали в общей жилой застройке. Нетрудно заключить, что крепость и рабад, особенно со второй половины XVIII века, составляли единый стихийно развивающийся городской организм. Рабад, не имевший определенного торгового и общественного центра, занимал подчиненное положение. Отсюда и прямое тяготение его к крепости, с которой он был связан Шемахинскими воротами.

Застройка рабада площадью 15-16 га занимала территорию к северу от крепости вдоль Шемахинской дороги, на которой располагались многочисленные караван-сараи. Щедрые источники родниковой воды питали рабад и крепость.

Феодальный Баку расширял свои границы за пределами крепостных стен, где образовался новый жилой район, не уступавший по площади крепости (21,5 га). Вокруг крепости и на границе рабада располагались шафрановые сады - драгоценные дары Апшерона. Позднее они были вытеснены городской застройкой.

После 1806 года разоренная и заброшенная застройка рабада постепенно стала приобретать жилой характер. Однако во время войны 1826 года рабад был настолько разрушен, что так и не сумел оправиться полностью; вокруг крепости возникли широкая эспланада и форштадт с прямоугольной регулярной планировкой.

da hərbi idarə Bakı limanının ticarət imkanlarından imperator xəzinəsinin gəlirlərini artırmaq üçün istifadə etməyi qərara aldı. Bununla əlaqədar 6 avqust 1809-cu ildə gömrükxana təsis olundu.

Gömrük vergisinin tətbiqi İranlı tacirlərin narazılığına səbəb oldu və onlar mallarını qaçaqmalçılıq yolu ilə ölkəyə keçirməyə başladılar. Bu isə öz növbəsində ticarət dövriyyəsinin və xəzinə gəlirlərinin azalmasına səbəb oldu. Bununla belə, 1829 və 1830-cu illərdə şəhərin müxtəlif bölgələrində (Bayılın qurtaracağında və qalanın ərazisində) gömrük idarələri üçün tikiləcək binaların layihələri hazırlandı[6].

Forştadtın şəhərin özəyinə, yəni qalaya bilavasitə yaxınlıqda əlverişli mövqedə yerləşməsi ərazinin əlverişli imkanlarından maksimum yararlanmaq niyyətində olan yerli hökumət dairələrinin diqqətini cəlb etməyə bilməzdi. Rabadın ərazisində vahid müntəzəm planlaşdırmaya əsaslanan Avropa tipli məhəllələrin salınacağı yeni forştadt yaratmaq məqsədilə 1809-cu ildə Qalanın Baş planı tərtib olundu[7].

Qala və forştadtın planlaşdırma sxeminin tərtibi zamanı məskunlaşmanın təşkili ilə yanaşı, həmçinin strateji xarakterli tikililərin inşası da nəzərdə tutulmuşdu. Bakı qalasının gözlənilməz hücumlar zamanı yaxşı qorunması üçün qala və forştadt arasında 350 metr enində esplanada saxlanılmışdı. Yeni rayonun planlaşdırma hüdudlarına hələ də fəaliyyətini qoruyub saxlayan və hərbi dairələrin strateji məqsədlərinə zidd olmayan rabadın şəhərsalma elementləri daxil idi. Başlıcası, Şamaxı yolunun mühüm rolu lazımi səviyyədə qiymətləndirilmiş və forştadın planlaşdırılmasının dördbucaqlı sistemi onunla əlaqələndirilmişdi. Bundan başqa bu

6. SSRİ MDHTA, f.14 719, s.3, s.v. 746, vərəq 180, 182.
7. Oradaca, f.HA, s.v. 20 553.

Как только Баку вошел в состав Российской империи, военные власти занялись укреплением крепости на случай войны с Ираном. В период с 1807 по 1811 год осуществлены основные работы по восстановлению двойного кольца стен, они были дополнительно укреплены бастионами и флешами при Шемахинских и Сальянских воротах. По всей линии бастионов и стен вырыт глубокий сухой ров, выложенный камнем, и насыпан земляной вал. Одновременно военная администрация решила использовать положение Баку как торгового порта в целях увеличения доходов императорской казны, и в связи с этим 6 августа 1809 года Была открыта таможня.

Введение пошлины вызвало недовольство иранских купцов, которые в обход торговой заставы стали переправлять товары контрабандным путем. Прямое следствие этого - упадок торговли и сокращение доходов казны. Тем не менее, составлением проектов зданий таможни для разных участков (на границе Баилова, на территории крепости) занимались и в 1829 и 1830 годах[6].

Выгодное расположение форштадта в непосредственной близости от основного городского ядра - крепости не могло не привлечь внимания местных властей, стремившихся как можно лучше использовать благоприятные данные местности. С целью организации территории рабада в качестве нового форштадта с единой регулярной планировкой и кварталами европейского типа в 1809 году был составлен генеральный план крепости[7].

При составлении схемы планировки крепости и форштадта было

6. ЦГВИА СССР, ф. 14 719, оп. 3, ед. хр. 746, л. 180, 182.
7. Там же, ф. ВУА, ед. хр. 20 553.

rayonda olan içməli su mənbələri və həmçinin qədimdən mövcud olmuş yaxşı işlənmiş su təchizatı sistemi nəzərə alınmışdı. Ərazinin sakit relyefi kütləvi cərgəvi tikintilər üçün əlverişli idi.

Forştadtın planlaşdırılma sxemində tarixi-təbii faktorlar əsasında inkişaf etməkdə olan şəhərin köhnə və yeni hissələrini birləşdirən nizamlı məhəllələr sistemi tətbiq edilmişdi. Qala ətrafındakı şəhər ərazisinin genişləndirilməsi zamanı qala və forştadtın qarşılıqlı əlaqə ideyasına diqqət yetirilmişdi. Bu prinsip gələcəkdə özünəməxsus planlaşdırılmasına, arxitekturasına və tamamlanmış bədii obrazına görə geniş magistralın - Nikolayevskaya (indiki Kommunist) küçəsinin yaranmasına səbəb olacaqdı.

Dəqiq həndəsi məhəllələrə parçalanmış forştadt hələ yeni planın üstünlüyünü əks etdirmirdi. Məhəllələrin abadlıq dərəcəsi çox aşağı idi. Bu onunla izah olunurdu ki, İranla hərbi toqquşmalar forştadtda iri miqyaslı tikinti işlərinin aparılmasına maneçilik törədirdi. 1828-ci ildə bağlanmış Türkmənçay müqaviləsi nəticəsində Şimali Azərbaycanın Rusiyaya birləşdirilməsinə qədər Bakı qalasının hücumdan müdafiə hazırlığı həmişə birinci dərəcəli iş sayılırdı. Məhz bu səbəbdən forştadtın tikintisi ilə bağlı məsələlər nadir hallarda irəli sürülürdü.

1810-cu ilin sxematik planında təfsilatlı həllərin olmamasına rəğmən, o, forştadın inkişaf tarixində mühüm dönüş nöqtəsi idi. Bu plan şəhərin genişləndirilməsi perspektivləri baxımından məhdud olsa da, tənzimləyici şəhərsalma sənədi sayılırdı[8]. Ərazisi sürətlə genişlənən şəhərdə yeni tikinti işləri mövcud küçələrin davamında aparılırdı. XIX əsrin axırına kimi Bakı perspektiv Baş pla-

не только принято во внимание устройство поселения, но и учтено строительство сооружений стратегического характера. Для эффективности обороны бакинской крепости, на случай внезапного нападения, между крепостью и форштадтом была оставлена свободная от застройки эспланада шириной около 350 м. В границы планировки нового района вошли те градостроительные элементы рабада, которые сохраняли еще функциональное содержание и не противоречили стратегическим целям военных властей. Главное, должным образом было оценено значение Шемахинского тракта и с ним увязана прямоугольная система планировки форштадта. Кроме того, были учтены источники питьевой воды в этом районе, а также издавна существовавшая хорошо разработанная система водоснабжения. Спокойный рельеф местности был благоприятен для массовой рядовой застройки.

В схеме планировки форштадта на основе историко-природных факторов была применена регулярная система кварталов, связавшая старые и новые части развивающегося города. Это выражалось в раскрытии фронта кварталов к крепостным стенам и их увязке с элементами фортификационных сооружений (башнями, бастионами). Идея взаимосвязи крепости с форштадтом была принята во внимание при расширении городской территории вокруг крепости. Этот принцип способствовал созданию в будущем своеобразной по планировке, колоритной по архитектуре и цельной по художественному образу широкой магистрали - Николаевской (ныне Коммунистической) улицы.

8. SSRİ MDHTA, f. 15 261, s.1, s.v. 1264.

*Bakı qalasının yaxınlığında forştadtın layihəsi 1813 (1) və 1822-ci (2) illərin Baş planları.*

*Проект форштадта при бакинской крепости. Генпланы 1813 г. (1), 1822 г. (2).*



na malik deyildi, bu da inqilabaqədərki şəhərsalma üçün xarakterik idi.

Tədricən forştadtın bir sıra məhəllələri əhalinin əsas etibarilə yoxsul təbəqələri hesabına məskunlaşdırılırdı. Fransız səyyahı Qambanın ifadəsinə görə 1820-ci ildə bütün forştadt gildən tikilmiş yeni tikililərdən ibarət idi 1822-ci ildə tərtib olunmuş "Qala daxilində və ondan kənarda mövcud olan rəsmi və mülki tikililər göstərilməklə, Bakı qalası və ona yaxın ərazilərin Baş planı" həmin dövrə aiddir (SSRİ Dövlət Hərb Tarixi Arxivi)[9].

1822-ci il planı forştadtın formalaşmasının bir sıra məqamlarını aşkara çıxarır və onun əsl vəziyyətini xarakterizə edir. Bu planda 1810-cu ilin Baş planının bütün xüsusiyyətləri qorunub saxlanılmışdır, lakin qaladan uzaq məhəllələrin qövsvari yerləşmə sxemi geniş esplanadaya əməl olunması və yeni məhəllələrin qala divarları və bastionun çevrəsinə istiqamətləndirilməsi hesabına davam etdirilmişdir.

Maraqlıdır ki, 1822-ci ilin Baş planında forştadtın mövcud tikililəri qeyd olunmuş, eyni zamanda yeni məhəllələrin qırmızı xətlərinə nə dərəcədə riayət olunduğu göstərilmişdir. Həmçinin, forştadtın yeni hissəsində tikintinin sıxlıq həddinin aşağı olduğu da qeyd edilmişdir. Tikinti xaotik xarakter daşıdığından məhəllələrin layihə cizgilərinə və küçələrin istiqamətinə əməl olunmurdu. Ehtimal ki, Rabadın köhnə tikililərinin bir qismi yeni məhəllələrin hüdudlarına daxil olmuşdu. Buna tikilmə tarixi 1806-cı ildən əvvələ aid və hal-hazırda mövcud olan bir sıra evlər dəlalət edir [37].

Bu varislik prinsipi iqtisadi nöqteyinəzərdən özünü doğrultmuşdu, amma buna bir o qədər də əməl olunmurdu. Çünki şəhərin yeni məntəqəsi həmin vaxtlarda mərkəzdən bir qədər uzaq ol-

9. SSRİ MDHTA, f.349, s.3, s.v. 3395.

Форштадт, расчлененный на геометрически правильные кварталы, еще не отражал преимуществ новой планировки. Степень застроенности кварталов была минимальной. Это объяснялось тем, что военные столкновения с Ираном не способствовали большому строительству в форштадте. Боевая готовность бакинской крепости к обороне всегда являлась первостепенной задачей, вплоть до окончательного присоединения Северного Азербайджана к России по Туркманчайскому договору 1828 года. Вот почему вопросы застройки форштадта возникали спорадически.

Схематический план 1810 года не был решен в деталях, и все же он являлся важной вехой в истории развития форштадта и стал дисциплинирующим градостроительным документом, но лишенным гибкости в отношении перспективы роста города[8]. При стремительном территориальном расширении города новая застройка размещалась на продолжении существующих улиц. Баку так и не имел перспективного генерального плана вплоть до конца XIX века; это характерно для дореволюционного градостроения.

Постепенно часть кварталов форштадта приобретала обжитой характер, в основном за счет беднейших слоев населения. По свидетельству французского путешественника Гамба, в 1820 году весь форштадт состоял из новых глинобитных построек.

К этому же времени относится и «Генеральный план Бакинской крепости с блислежащего около оной ситуации и с показанием существующего казенного и обывательского строения как в крепости, так и вне оной», составленный в 1822 году (обнаружен нами в ЦГВИА СССР)[9].

8. ЦГВИА СССР, ф. 15261, оп. 1, ед. хр. 1264.
9. Там же, ф. 349, оп. 3, ед. хр. 3395.

duğundan ona nə hərbi komendant, nə də Bakı qalası və forştadtın rəhbərliyi tərəfindən nəzarət olunmurdu. 1810 və 1822-ci illərin planları nizamlı surətdə tikinti işlərinin aparılması ilə yeni yaşayış rayonunun yaradılmasını nəzərdə tutsalar da, hər halda onların planlaşdırılmasında yarımçıqlıq, natamamlıq özünü göstərirdi. Bakının yeni rayonları öz plaşdırmasının nizamlılığı cəhətdən XIX əsrin birinci qərinəsinin Rusiya şəhərləri üçün səciyyəvi olan planlaşdırmanı xatırladırdı [139].

Forştadtın planlarının tərtibində həmin dövrün rus şəhərsalma mədəniyyətinin əsas prinsipləri nəzərə alınmamışdı. Bu prinsiplərə görə, qədim qalaların və yaşayış məntəqələrinin yanında Avropa tipli şəhərlərin salınması Baş planların tərtib olunması ilə müşayiət olunmalı idi [33]. Baş planlarda ərazinin tarixi və topoqrafik şəraiti, sahələrin zonalar üzrə bölgüsü, ictimai və ticarət mərkəzlərinin yerləşməsi, ictimai istifadə üçün yaşıllıqların salınması (bağ, bağça və parklar) və bu hissələr arasında əlaqənin qurulması nəzərə alınırdı.

XIX əsrin I qərinəsində Rusiyanın yeni şəhərlərinin əksəriyyəti bu cür planlaşdırma ilə təmin olunmuş və bunun əsasında həmin şəhərlərdə geniş miqyaslı şəhərsalma işləri aparılırdı[10].

Fonder Nonnenin 1898-ci ildə tərtib etdiyi, nöqsanlardan heç də xali olmayan, planlaşdırılma baxımından bitkinlikdən məhrum plana qədər Bakı üçün perspektiv şəhərsalma sxem və planları hazırlanmamışdı. Buna baxmayaraq fon der Nonnenin planı şəhərin sonrakı inkişafı üçün qiymətli şəhərsalma sənədi idi [179]. Bakı forştadtının inkişafının başlanğıc mərhələsində bu vəziyyət planlaşdırmada və bütünlüklə şəhər tikintisində özünü da-

10. Rusiya imperiyasının qanunlarının tam toplusu. SPb, 1839.

План 1822 года раскрывает ряд моментов формирования форштадта и характеризует его действительное состояние. В этом плане сохранены все планировочные особенности генерального плана 1810 года, но продолжена схема дугообразного расположения кварталов в отдалении от крепости за счет соблюдения широкой эспланады и привязки направления новых кварталов к абрису крепостных стен и бастионам.

Примечательно то, что на генеральном плане 1822 года зафиксирована существующая застройка форштадта, одновременно показано, насколько соблюдались красные линии новых кварталов, и отмечалось, что в новой части форштадта плотность застройки кварталов незначительная. Застройка все еще носила хаотический характер, и потому проектные линии кварталов и направления улиц не были соблюдены. Возможно, что часть застройки сохранялась еще от рабада и естественно вошла в границы новых кварталов; на это указывает ряд существующих и ныне домов с датами построек до 1806 года [37].

Такая преемственность экономически была оправдана, но не очень соблюдалась, поскольку новый район города, по тем временам значительно удаленный, не контролировался ни военным комендантом, ни управляющим бакинской крепостью и форштадтом. Планы 1810 и 1822 годов, хотя и фиксировали появление района новой регулярной застройки, все же отразили лоскутный характер ее планировки. Новые районы Баку по своей регулярности напоминали планировку, характерную для городов России первой трети XIX века [139].

ha qabarıq göstərirdi. Bakının ərazisinin genişlənməsi Baş memarın olmamasından irəli gələn kortəbiiliklə, nizamlı məhəllələrin düzbucaqlı şəbəkəsi formasında davam edirdi.

Mahiyyət etibarı ilə, "Bakının Baş planı" adlandırılan 1822-ci ilin planı əlavə düzbucaqlı məhəllələrin yaradılmasını təyin edirdi. Bu planın tərtibinə qədər forştadt şəhər rayonunun yaradılmasının ilkin mərhələsinə şahidlik edirdi və bu rayon öz yüksək ustalıqla inşa olunmuş qiymətli memarlıq abidələri ilə şəhərin ən mühüm guşəsinə çevriləcəkdi. Hələlik isə gömrük idarəsi, komendant evi, zabit və əsgər kazarmaları, ticarət və sənətkarlıq cərgələri, karvansaralar, o dövrün yeknəsəq feodal Bakısına özünəməxsusluq və ifadəlilik qatan minarəli şəhər və məhəllə məscidlərindən ibarət İçərişəhər şəhər həyatının cazibə mərkəzi olaraq qalırdı.

Qalanın 1826-cı ildə iki ay boyunca keçmiş Bakı xanı Hüseynqulu xanın qoşunları tərəfindən mühasirədə saxlanılması forştadt və ətraf kəndləri xarabaya çevirdi, qala daxilindəki şəhər həyatının gərginliyini xeyli artırdı. Viran qalmış məntəqələrin sakinləri qala divarları arxasında gizləndilər. Bu qala əhalisinin sayının artması ilə nəticələndi. Müdafiə istehkamları vasitəsilə düşmən hücumlarından qorunmayan forştadtın ərazisi bu cür narahat bir dövrdə məskunlaşma üçün təhlükəli idi. Forştadtın Hüseynqulu xan tərəfindən talan edilməsindən qorxuya düşən sakinlər qalanı yaşayış üçün daha etibarlı yer sayır, onun istehkamları, dərin xəndək və torpaq bəndlə əhatə olunmuş uca, qülləli möhkəm daş divarları arxasında özlərini tam təhlükəsiz hiss edirdilər.

Bakı qalası istər coğrafi mövqeyinə, istərsə də fortifikasiya göstəricilərinə

При составлении планов форштадта не были приняты во внимание основные принципы русского градостроительного искусства того времени, при которых возведение у старых крепостей и населенных пунктов городов европейского типа должно было сопровождаться составлением генеральных планов [33]. Генпланы разрабатывались с некоторым учетом местных исторических и топографических условий, зонирования территорий, местоположения общественного и торгового центров, зеленых насаждений общественного пользования (садов, скверов, парков) и установления взаимосвязей между этими частями.

Подобными планами в первой трети XIX века были обеспечены многие новые города России, в которых на этой основе проводилось широкое городское строительство[10].

